# ƏN XOŞBƏXT ŞAİRİ MƏNƏM BU YURDUN...

## *Yazıya ad sorağında*

**Gözəl şair, məharətli loğman Tofiq Nurəli haqqında ürəkdən gələn bu yazını qələmə alanda, qısa müddətə olsa da, bir qədər ziddiyyətli fikirlər yaşadım. Daha doğrusu, əvvəlki düşüncələrimdən birinin əksinə getdim. Bu ”əksinə getmə” yazıya verilən adla bağlı meydana çıxdı. Qaydadır, adətən, yazıya başlamazdan qabaq onun adını düşünüb, tapırsan (əksinin olduğunu da inkar etmirəm:əvvəl yazı hazırlanır, sonra mətnə uyğun ad verilir). Uğurlu ad həm də yazının daha yaxşı alınmasına kömək edir, oxucunu yormur, yazana fikirlərini daha münasib şəkildə qələmə almağa kömək göstərir. Bu barədə götür-qoy edərkən yadıma düşdü ki, Tofiqlə bığlı qələmə aldığım bir yazının adını elə şairin öz şerindən bir misra seçməklə müəyyənləşdirmişdim. Həyəcan doğuran başlıq idi: ”Ən qəmli şairi mənəm bu yurdun.”**

Tərddüd etdim. İnsan, insanlıq tarixində önəmli yer tutan şair niyə yazır, məqsədi nədir, nə istəyir? Əlbəttə, başqa cavablar da var. Amma düşünürəm ki, bunların içərisində yada düşmək, xatırlanmaq ehtiyacının ödənilməsi ilə bağlı istəklər mühüm yer tutur. Bəli, hər bir insanın sosial mövqeyindən asılı olmayaraq əbədi arzularından biri cismən bu dünyadan uzaqlaşanda, ruhən dünyada qalmaq, dirilər tərəfindən yada salınmaq arzusu olub. Adama elə gəlir ki, bəşər övladının yaradıcı fəaliyyətinin özəyində də bu istək dayanır və insanı valeh edən müxtəlif nəticələr də həmin istəyin hökmü ilə yaranır. Kimi yapdığı heykəllə, kimi ucaltdığı memarlıq abidəsi ilə... arzusuna qovuşduğunu xəyal edir, xəyalları da gerçəkləşir. Yüz illərlə əvvəllər yaşamış və qətiyyətlə demək olar ki, indi də bizimlə qalan adamları məhz bi ideya yaşatmırmı?! Bu mənada söz adamları xüsusilə seçilib. Bədii sözə, poetik düşüncənin ifadəsinin gücünə inananlar, deyəsən, məqsədlərinə-xoşbəxtliklərinə daha yaxşı çatırlar ...

Bəli, Tofiq kamil həkimdir, yüzlərlə xəstəyə sağlamlıqlarını bərpa etməkdə kömək göstərib, ağrılarını azaldıb. Amma başqaları kimi, Tofiqin şəfa verdiyi xəstələr və onların yaxınları da təbii ki, zaman gələcək bir həkim olan Tofiqi unudacaqlar.

Amma Tofiq Nurəli mənalı və zərif şeirləri ilə şeirsevər insanların yaddaşınıda əbədi yer tutacaq xoşbəxt insanlardan biridir, buna əminəm. Və bu əminlik mənə yuxarıda qeyd etdiyim kimi, qələmə aldığım yazının adını müəyyənləşdirməyə istiqamət vedri: Ən xoşbəxt şairi mənəm bu yurdun.

Özünü sözə möhtac bilən, ona könül verən, sözün canlı olduğuna qəlbən inanan şairlər oxucu yaddaşında möhkəm yer tuturlar. Azərbaycan xalqı, mərhum akademik, böyük alim Azad Mirzəcanzadənin yazdığı kimi, humanitar təfəkkürlü xalqdır. Humanitar təfəkkürün əsas göstəricilərindən biri poeziyaya vurğunluqda ifadə olunur. Ona pis şeir nümunəsini yaxşı kimi təqdim etmək mümkün deyil. Bu xalq yaxşı şeiri ”göydə tutur”, onu qiymətləndirərkən ilk növbədə öz ürəyi ilə məsləhətləşir, genetik yaddaşın istiqamətləndirdiyi hökmü əsas götürür, sonra nəticəyə gəlir. Nəticə də düz olur. T.Nurrəli müasir poeziyamızın belə nümayəndələrindən biridir.

Nizami Gəncəvisi, Məhəmməd Füzulisi... olan xalqın yaxşı şairi olmaq çətindir. Çox çətindir.

### *Yolum düşdü Yerfidən*

Tofiq Nurəlinin doğulub boya-başa çatdığı, yıxıla-dura yerimək öyrəndiyi, ”Ana”,”Vətən”sözlərini yaddaşına həkk etdiyi Yerfi kəndini Tofiqi tanımazdan xeyli əvvəl tanımışam. Bu kənd Quba rayonundadır. Vaxtilə Qonaqkənd rayonu olub. Biz şabranlıların inamla ziyarət elədiyimiz Baba dağının bir yolu da Yerfidən keçir. Ona görə də ziyarətə kedəndə bizim Çaraq kəndi kimi sərt bir qayaya sığınıb, ona bel bağlamış Yerfi ürəyimdə özünə həzin bir guşə tutub. O vaxtlar ağlıma belə gəlməzdi ki, bu kənd, əhalisinin sayına görə ziyalılarının çoxluq təşkil etdiyi bir yurd yeridir. Bilməzdim ki, bu kəndin övladı olaraq qalan, amma məharətli həkim, nəcib şair kimii formalaşan Tofiq Nurəli adlı biri ilə nə vaxtsa rastlaşacaq, tanışlıq uzun illərin dostluğuna çevriləcəyik, bir səmimiyyət yaranacaq aramızda. Vaxtilə içərisindən keçib getdiyim Yerfi mənə doğmalaşacaq, ora yolum daha tez-tez düşəcək. Çox sonralar, Tofiqlə tanış olub yaxın ünsiyyət quranda bunu da bildim ki, bir qədər qəmli görünən, vaxtilə çoxlu əhalisi, sinifləri şagirdlərlə dolu məktəbi, kitabxanası, tibb məntəqəsi, mədəniyyət ocağı olan Yerfi yazıçı və şairlərinin sayına görə də xüsusi yeri ilə seçilir. Tofiq Nurəli (o vaxtlar hələ Nurəli deyildi, Hacıyev soyadını daşıyırdı) ilk dəfə sözə mehrini Yerfidə salıb, bu kənddə şeirə könül verib və həmişə də bu sevgini yaşadıb, kənddə qalan böş evlərin taleyi içini göynədib:

*Tənhalıq içindən, təklik içindən,*
*İntizar içindən, boşluq içindən*
*İşıqsız, nəfəssiz, odsuz-ocaqsız*
*Hənirsiz, buz sükut-daşlıq içindən*
*Görən necə çıxdı evimiz yaza?!*

*O nələr keçirdi çərşənbələrdə?!*
*Əydi hansı daşın qəm-qübar yükü?!*
*O həyət tonqalsız, o damlar şamsız...*
*Onu boğmadı ki bu soyuq bürkü?!*
*Görən necə çıxdı evimiz yaza?!*

Verilmiş nümunədə həm də etnoqrafik bir təsvir var. Oxuyanda özündən asılı olmayarq insanın gözləri önündən yüz illərlə tarixi olan



Növruz ənənələrinin Azərbaycanın ucqar bir kəndində necə sevildiyi, can verib yaşadıldığı keçir. Bu ənənələr adamları humanizmə, həmrəyliyə, təbiətlə birgə olmağa, onun qədrini bilməyə çağırıb. Bir az da dərindən nəzər salanda bu şeirdə şairin kəndlərin boş qalmasına bais olanlara, birləşdirici gücə malik ənənələrin şüurlardan, yaddaşlardan silinməsinə çalışanların cəhdinə güclü etiraz duyulmaqdadır. Sanki şair oxucunun diqqətini şeirin alt qatındakı mənalara cəlb etmək istəyir:

*Ey ata ocağım, ey ana evim,*
*Sənə ata deyim, lap ana deyim?!*
*O necə oğuldu, deməzmi bir yol*
*Gedim bir atama, anama dəyim?*

*Mən dəyə bilmədim, dəyə bilmədim*
*Heç bir gərək də yox min bəhanəyə.*
*Yəqin atam kimi, eh anam kimi*
*O evin də ruhu incidi məndən...*

### *Sözü geydim əynimə*

Yurd-yuva sevgisi indi 70 yaşını haqlayan Tofiqi heç vaxt dərk etməyib. Cəsarətlə demək mümkündür ki, özünün harada olması, cisminin haralarda məqam tutması onu ruhən doğma kəndindən, gözünü açıb gördüyü doğma yerlərdən ayrı sala bilməyib. ”Sözü əyninə geyəndən sonra” hər şey də olmasa çox şey dəyişib:

*Qeybdən gələn bir səsin*
*Nə köhnəsi, nə təzəsi?!*
*Dünya malının əvəzi*
*Sözü mən geydim əynimə.*

*Heç nə ilə ölçülməyən*
*Yeyilməyən, içilməyən*
*Heç vaxt güllə keçirməyən*
*Sözü mən geydim əynimə.*

*Tufanın içindən mehi,*
*Leysanın içindən şehi,*
*Vaxt deşməyən bir zirehi-*
*Sözü mən geydim əynimə.*

Bəlkə də elə sözü əyninə geyinəndən bilib ki, yolu hara düşür-düşsün, daha onu soyuq üşütməyəcək, isti bişirməyəcək. Dara düşəndə söz köməyinə çatacaq. Dərdini, kədərini, sevincini insanlara deyə bilməyəndə sözə üz tutacaq, sözdən təsəlli tapacaq. Söz də Tofiqdəki bu sevgini, məhəbbəti duyub. Məcazi məna görmürəm bu fikirdə. Həmişə düşünmüşəm ki, söz dünyada canlıların ən canlısıdır. Özü də belə düşünən tək mən deyiləm. Sözə sevgisinə görə, söz də T.Nurəliyə könül verib. Tofiq əlinə qələm alıb, ”şairliyə başlayandan” sözün könlünə dəyməyib, ona zərgər dəqiqliyi ilə yanaşıb. Yazmaq istədiyi mövzular ürəyini sızlatmayanda, könlünü ovlamayanda yazmayıb. Elə bil ki bir müqavilə imzalanıb aralarında. Amma sakitlik tez pozulub. Qəlb çırpıntıları, könül istəkləri dilə gəlib, yeni-yeni şeirlər doğulub.Söz insanın ilkin və əbədi yol yoldaşıdır. İnsanın özündən xəbərsiz söz ona həyan olub. İnsan və söz. Hələ şairlər olmayanda bu iki əbədi varlıq mövcudluğunu vəhdətdə saxlayıb, həyatın qanlı-qadalı yollarını əl-ələ tutub gediblər. Heç biri digərinə borclu qalmayıb. Bir-birlərinə ”dirilik” veriblər həmişə. Sözə dirilik verən şairlərimizdən biri də elə haqqında yazdığım Tofiqdir. Sözə təpədən dırnağa bələd olduğu hər bir misrasından aydın duyulan:

*Ay müəllim, Baba dağı necədi?*
*Kəllər gədiklərdən aşırmı görən?*
*Gecələr dünyanı leysan döyəndə*
*Sular dərələrdən daşırmı görən?*

Yaxud:

*Ömür keçdi payızların içində,*
*Payız imiş yaz bildiyim bu yazı.*
*Mən bilirəm soyuqlara az qalıb...*
*Getdim yığım budaqlardan payızı.*

### *Sözlərə dəymir köməyim*

T.Nurəlinin sözə münasibəti bəzən aşırı duyğusal görünür. Sözün qayğısına özü qalır. Həm də ”sözü qanlı meydan içinə atmaqlığın” törədəcəyi fəlakətləri görür. Nümunəyə nəzər salaq:

*Qələm qan-qan deyir yenə,*
*Misralar qan içindədi...*
*Sözlər kəsik başlar kimi*
*Qanlı meydan içindədi...*

*Yarasından qan fışqıran*
*Sözlərə dəymir köməyim...*
*Ağrıdan ”Vətən” qışqıran*
*Sözlərə dəymir köməyim...*

İslamın müqəddəs kitabında sözə bir neçə dəfə münasibət bildirilir. O, kökü yerin dərinliklərinə işləmiş, budaqları göyə ucalmış gözəl yaşıl ağacla müqayisə olunur.

İnsanlara ”gözəl sözlər danışmaq ” tövsiyə edilir. Həkim-şair dostumuz T.Nurəli sözü haldan-hala salanları da unutmur. Günahkarın kim olduğunu ürək ağrısı ilə göstərir. Hiss edirsən ki, özünü də yaddan çıxarmır:

*Bu söz nə yaman göynəyir-*
*Yarasına duz basılıb...*
*Bir sevgi ölüb bu səsdə-*
*Bir qız ordan özün asıb.*

*Mən öldürmüşdüm sözünü*
*Mənə məktub yazan qızın...*
*Sevgilisi mən olmuşdum*
*Sözdən özün asan qızın.*

### *Ruh aləmi zəngin olanda*

Dost və gözəl şair Maarif Soltan Tofiqin sözə münasibətini məharətlə ifadə edib: ”Ədəbi abidənin əsas tikinti materialı sözdür.

Tofiq isə bu materialdan ustalıqla istifadə etməyi bacarır-hər sözü yerində, məqamında, lazım olan ölçüdə hörə bilir. Aydındır ki, işinə belə məsuliyyətlə yanaşan usta heç vaxt səhlənkarlığa yol verməz və hansı üslubda, hansı formada, hansı mövzu və məzmunda yazmasından asılı olmayaraq, yaratdığı abidələr həmişə dəyərli olacaq və göz oxşayacaq.”

Tofiq yaradıcılığının mənbəyi, ruh aləmi o qədər zəngindir ki, oxucu bu zənginliyin poetik ifadəsinin dəqiqliyinə, məharətinə, məzmunla formanın vəhdətinə heyrətini gizlədə bilmir. ”Sözdən çələng toxumaq” ifadəsi düşür yada. Bəli, Tofiq sözləri yazmır, onlardan min rəngli, min ətirli çələng toxuyur. Onun şeirlərini oxuyanda həm də təsvir olunan mövcudluğun fiziki, kimyəvi, psixi halını duyur, hiss edirsən. Bu T.Nurəlinin bütün şeirlərində belədir. Amma bir cəhət özünü daha qabarıq bürüzə verir. Müəllifi olduğu şeirlər həm də onun özünün daxili aləminə güzgü tutur. Tofiqin şeir yazarkən keçirdiyi təlatümlər göz qarşısında bir kino lenti kimi canlanır.

İndi, bəlkə daha əvvəllərdən, Tofiq müdriklik yaşını yaşayır. Şeirləri də özü kimi müdrikdir, oxucunu da müdrikliyə istiqamətləndirir.

Bu xüsusiyyət şairin şeirlərində bəzən birbaşa, bəzən də dolayısı yolla əks olunur. Bəzənsə bircə şeir nümunəsinin özündə həm birbaşa ifadə olunan, həm də dolayısı mənа kəsb edən fikirlər görmək mümkündür. Amma bu, şeirin estetik dəyərini azaltmır, əksinə, ən azı, düşüncəni, zəkanı cilalayır.

**Tofiq 70 yaşına çatıb. Az ömür deyil, Amma elə çox da deyil. Daha nə demək olar? Demək olar ki, gözəl həkim, sevilən şair, bundan sonra da uzun illər ailənlə, sənin əhvalınla nəfəs alan balalarınla, dostlarınla, bir də könül verdiyin böyük hərflə yazılan Sözlə birgə yaşa!**

**Oqtay Abbas,**
**ADU-nun dosenti**